# "LAÇIN"

## Bu yazı bir antologiya barəsindədi

**Onunla "Azərbaycan" nəşriyyatında tez-tez qarşılaşırıq. Elə eyni mərtəbədədi iş otaqlarımız. Çox səmimi, sakit, necə deyərlər, öz işi ilə məşğul olan bir insandı. Tanıdığım bu illər ərzində bir dəfə də olsun onun səsini yüksəltdiyini müşahidə etməmişəm. Danışanda da, hal-əhval tutanda da o qədər diqqətli və təvazökardı ki, elə bil heç bu dünyanın adamı deyil. Mən bunun səbəblərini öncə əxlaqla, tərbiyə ilə bağlayıram, sonra bu adamın doğulduğu ünvanla, onun çiynindəki yüklə, missiya ilə...**

Barəsində danışdığım Mübariz Binnətoğlu Laçında doğulub - Ərikli kəndində. Uzun illərdi ki, mətbuatda çalışır. Amma onun bütün yazılarının şah damarı Laçındı, vətəndi, nisgildi. Elə kitabları da Laçınla bağlıdı, yurdla bağlıdı. Bu yaxınlarda mənə təqdim etdiyi "Laçın anatalogiyası" da həmin o yurd nisgiliylə, Laçın həsrətiylə qol-boyun olmuş duyğuların ifadəsidi. Yəni Mübariz müəllimin tərtibçisi olduğu bu kitab 400 illik Laçın ədəbi mühitinə həsr edilib. Və kitabın ilk cildi XVII-XXI əsri əhatə edir. Sonra XVII-XX əsrlərin ədəbi mühitinə baxış da bunun içərisində öz yerini alır. Maraqlıdır ki, kitabı tərtib edəndə Mübariz Binnətoğlu kifayət qədər nüfuzlu söz, ədəbiyyat adamları ilə fikir mübadiləsi edir. Ona görə də kitaba elmi redaktorluğu filologiya elmləri doktoru, professor Şirindil Alışanov öz üzərinə götürüb. Redaktorlar isə filologiya üzrə fəlsəfə doktorları professor Abbas Abbasov, Rəşid Quliyev və Əli Əliyevdi. Kitab adamın ruhunu oxşayan bir bənd şeirlə üzünü oxucuya açır.

**Bu yol sınan qolum, bükülən dizim,**
**Bu yol damarımda donun qanımdı.**
**Bu yolun üstündə ağla, əzizim,**
**Bu yol əsir yurdum, xanimanımdır!**

Mən kitabı vərəqlədikcə Laçın ədəbi mühitinə aid olan çox dəyərli söz sahiblərinin imzaları ilə qarşılaşıram. Onların arasında şəxsən tanıyıb, hətta aftoqrafla kitablarını əldə etdiyim tanınmış imza sahibləri, eləcə də el sənətkarları və yeni ədəbi mühitə aid olan nəslin təmsilçiləri bir-birindən maraqlı şeirləriylə o antalogiyada Laçın deyib Laçından danışırlar. Xalqımıza, xüsusilə aşıq ədəbiyyatı ilə maraqlanan hər kəsə çox yaxşı bəlli olan Sarı Aşığın bayatıları kitabda xüsusi yer tutur.

**Mən Aşıq, gözəl alma,**
**Yeməyə gözəl alma.**
**Çirkin al, əsil olsun,**
**Bədəsil gözəl, alma.**

Və yaxud:

**Aşığam, yaxşı qala,**
**Ocağı yaxşı qala.**
**İstərəm bu dünyada,**
**Pis ölə, yaxşı qala!**

**Mən Aşıq, gora nə var,**
**Horandan Gorana var.**




**Bir vəfalı yar ilən,**
**Getməyə gora nə var.**

Antalogiyada həmçinin imzası ədəbiyyatşünaslara, xüsusilə el nəğmələrinə, xanəndə ifalarına könül vermiş oxucularla, dinləyicilərə yaxşı olan Mir Həmzə Seyid Nigarinin də yaradıcılığından nümunələr yer almışdı. Onun:

**Tükənməzmi dərdim, yoxmu bir çarə,**
**Yaxılırsan şami-səhər odlarə.**
**Səbr eylə, biçarə, ey günü qarə,**
**Ey Seyid Nigari, mövla kərimdir.**

Və yaxud:

Azərbaycan oxucusu Hüseyn Kürdoğlunun yaradıcılığına yaxından bələddir. Elə "Ədalət" qəzeti də tez-tez unudulmaz Hüseyn Kürdoğlunun yaradıcılığına üz tutur, ona bir-birindən dəyərli şeirlərini oxuculara təqdim edir. Bu anatalogiyada da Hüseyn Kürdoğlu yaradıcılığına da geniş yer ayrılır. Həmin şeirlərdən birində şair yazır:

**İstərəm insafa gələsən bir az,**
**Dar gündə üzümə güləsən bir az.**
**Yaxşıdı qəfildən ölüb gedəsən,**
**Yamandı hər gün də öləsən bir az.**

Və yaxud:

**Mən ölsəm Laçın ağlar,**
**Yolar ağ saçın ağlar.**
**Göydən keçən durnalar,**
**Ləngidər köçün ağlar.**

Yeri gəlmişkən xatırladım ki, ədəbiyyatımızda Ağa Laçınlının yeri hər kəsə məlumdu. Elə bu antalogiyada da Ağa Laçınlının misraları oxucuların ixtiyarına verilib. Həmin şeirləri oxuduqca bir vətən həsrəti ilə yanaşı, bir söz, fikir yükünün böyüklüyü də insanın gözləri önündə dağ kimi ucalır. Şair yazır:

**Mənim durru könlüm düzünə çəkir,**
**Tale də qamçını dözənə çəkir.**
**Özgə şirnikdirib özünə çəkir,**
**Kökümdən ayrılıb qopa bilmirəm.**

Və yaxud:

**Könüllərdi mənim evim, eşiyim,**
**Könül olsun axırıncı beşiyim.**
**Qorxuram ki, qəbirdə də üşüyüm.**
**Ürəklərə girməyincə ölmərəm.**

Kitabda həmçinin şairlərdən

**Elbrus Abbasov:**

**Elbrus, adam var, hesabın bilməz,**
**Etdiyin yaxşılıq gözə görünməz.**
**Özü umar, küsər hayına gəlməz,**
**Girəvə düşəndə dolaşıb gedir.**

**Eldar Elduası:**

**Yanır od içində Qarabağımız,**
**Qarabağ sağalmaz sinə dağımız**
**Daha nəyə gərək yaşamağımız,**
**Ondansa bir ölüm uyur, ay Allah.**

**Malik Fərrux:**

**Gedən qartalını dağlar səsləyər,**
**Bu dərdi, bu yükü daşıya bilməz.**
**Haraylar - səsləyər, ağlar - səsləyər**
**Dağdırsa qartalsız yaşaya bilməz.**

**Aşıq Umbay:**

**Mər igidlər məskən salar sinəmdə,**
**Umbay deyər, çox durmuşam bərəndə.**
**Dinşəmişəm telli sazlar dinəndə,**
**Sənlə bağlı adım, sannım İşıqlı!**

və digər şairlər oxuculara təqdim edilir.

Bəli, bu antologiyada oxucuların yaxşı tanıdığı Malik Fərruxun, Rəfael Laçınlının, İlyas İbrahimovun, Əli Mehdinin, Aşıq Umbayın və bütövlükdə 27 müəllifin poeziya çələngi toplanmışdı. Və bütün bu əsərləri toplayıb oxucu qarşısına çırdan da, onu "Laçın antalogiyası" kimi təqdim edən də təbii ki, dəyərli dostumuz Mübariz Binnətoğludur. Düşünürəm ki, Mübariz müəllim başladığı bu işi sona çatdıracaq və antalogiyanın növbəti cildləri də xeyirxah insanların köməyi ilə işıq üzü görəcəkdi. Ən vacibi biz bu kitabları, ümumiyyətlə Laçının çiçək ətirli söz çələnglərini, söz toplularını elə Laçında oxuyacağıq.

**Əbülfət MƏDƏTOĞLU**